# BÖYÜK QƏLƏBƏNİN AÇARI

*(Əvvəli ötən saylarımızda)*

Yaxşı yadımdadır, anam çox vaxt dünyadan nakam köçmüş şəhid qardaşını yada salıb için-için ağlayırdı. Atam isə yaxın dostları ilə söhbətlərində M.C.Bağırovun mərdanə keyfiyyətlərindən, onun 416-cı Taqanroq diviziyasının yaradılması zamanı göstərdiyi rəşadətlərdən danışardı. Bu diviziyanın Mazdokdan Berlinə kimi şərəfli döyüş yolu keçməsi faktı yaşlı və orta nəslin nümayəndələrinə yaxşı məlumdur. Komandir kadrlarının çoxu azərbaycanlı olduğu üçün ucqar rayonlardan cəbhəyə çağırılan və rus dilini yaxşı bilməyən döyüşçülərə əmrlər də çox vaxt milli dildə verilirdi. Kitabdan oxuyuruq: "Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçən 416-cı Taqanroq atıcı diviziyası Vermaxtın 24000 nəfər düşmən əsgər və zabitini məhv etmiş, 5474 nəfərini isə əsir götürmüşdü. Generallardan Tərlan Əliyarbəyov, Dmitri Servanov, Vladimir Zyuqanov ayrı-ayrı vaxtlarda bu diviziyanın komandirləri olmuşlar." (səh. 179). Bəli, bu gün çoxumuz Taqanroq diviziyası barədə azdan-çoxdan bilgilərə malikik, amma keçdiyi döyüş yolu boyunca heç də ondan az rəşadətlər göstərməmiş 223-cü Azərbaycan atıcı diviziyası barədə şəxsən mənim təsəvvürlərim yox idi. Bu diviziya barədə kitabdan oxuyuruq: "Diviziyanın döyüşçüləri müharibə illərində Vermaxtın 25000 əsgər və zabitini məhv etmiş və ya əsir götürmüşdür. Düşmənin 28 təyyarəsi, 113 tankı, 549 topu, 311 minamyotu, 1152 pulemyotu, 25000 avtomatı və tüfəngi, 2 zirehli qatarı, 2 min avtomaşını, 219 paravozu, yüklə dolu 7400 vaqonu, 70 avtomobili və 2 milyon pud taxılı qənimət olaraq ələ keçirilmişdi." (səh.181). Müharibə başlayandan bir ay sonra artıq Müdafiə Fondu adında bir təşkilat yaradıldı və arxa cəbhədə yaşayıb az-çox imkanı olan hər bir şəxs bacardığı hər bir şeylə-pul, istiqraz, geyim və ya əşya ilə Müdafiə Komitəsinə yardım keçirməyə və bu yolla Qələbəni yaxınlaşdırmağa çalışırdılar. O zaman Sovetlər Birliyi çox güclü, zəhmli, qəddar və amansız bir düşmənə qarşı ölüm-dirim savaşı aparmaq məcburiyyətində qalmışdı. Təsəvvür edin ki, müharibənin ilk günlərindən etibarən düşmən böyük sürətlə irəliləyir, ordumuz isə ağır itkilər verə-verə geri çəkilirdi. Bu itkilər təkcə hərbi texnika və insan resursları ilə yekunlaşmırdı. İşğal edilən kəndlər, şəhərlər, vilayət və respublikalar bütün sərvətləri və daxili ehtiyatları ilə birgə düşmənin gücünü, maddi imkanlarını artırırdı. Mərkəz yaxşı başa düşürdü ki, indiki məqamda düşmənin hücumunu dayandırıb irəliləməsinin qarşısını almaq bir nömrəli vəzifə kimi qarşıda dururdu. Buna görə də birinci növbədə geniş ərazilərə, zəngin daxili ehtiyatlara malik olan arxa cəbhənin bütün daxili imkanlarını səfərbər edib böyük Qələbənin yaxınlaşmasına yönəltmək lazım gəlirdi. Müharibə illəri boyunca arxa cəbhədə toplanıb döyüş bölgəsinə göndərilən yardımların çeşidi də çox zəngin idi: iri və xırda buynuzlu heyvan, buğda, arpa, pomidor, xiyar, küləş, kələm, soğan, süd, qızıl, gümüş, pul, istiqraz, qoyun, şalvar, dəri, keçə çəkmə, alt paltarı, mələfə, yun, yorğan, yarımpalto, sırıqlı, xəz papaq, yağ, pendir və s. Həmin vaxt ordu sıralarında milyonlarla adam döyüşürdü. Bu qədər adamı yedirtmək üçün çoxlu sayda təzə və konservləşdirilmiş ərzaqlar, hər gün yaralanan minlərlə adamı müalicə etmək üçün isə çoxlu sayda tibbi kadrlar və tibbi ləvazimatlar tələb olunurdu. Xalqın tanıyıb-sevdiyi, güvənib etibar etdiyi mədəniyyət xadimləri, görkəmli qələm sahibləri də müsəlləh əsgər kimi gecə-gün-



düz çalışır, bacardıqları hər şeyi etməyə cəhd göstərirdilər. Şəffaflıq, obyektiv reallıq naminə toplanan yardımların dəqiq uçotu aparılır və bütün bunlar mətbuat səhifələrində öz əksini tapırdı. Kitabdan oxuyuruq: "Respublikanın qələm ustaları da özlərinin sosial fəallığı ilə fərqlənirdilər. Yazıçılar və şairlər Stalin mükafatı laureatı Səməd Vurğunun ardınca ölkənin Müdafiə Fonduna vəsait köçürürdülər. 1941-ci ilin payızına yaxın Rəsul Rza 1000 rubl, Süleyman Rüstəm 1500 rubl, Mir Cəlal Paşayev və Cəfər Xəndan hər biri 1000 rubl və min manatlıq da istiqraz vərəqini Fonda köçürdülər. Onlar həm də ayda iki günlük ənək haqlarını Fondun hesabına yazdırırdılar. Ədəbiyyatşünas alim Məmməd Arif Dadaşzadə 2000 rubl, şair Məmməd Rahim 1000 rubl pul köçürdülər. Həmin günlərdə SSRİ Elmlər Akademiyası Rəyasət Heyəti Azərbaycan filialının sədr müavini Heydər Hüseynov Müdafiə Fonduna 15000 rubl ödədi." (səh. 145). Kitabda həmçinin iqtisad elmləri doktoru, professor Şamil Səmədzadənin "Təkcə atam barədə deyil" adlı maraqlı bir yazısına da yer verilib. Təbii ki, burda akademik Ziyad Səmədzadənin böyük qardaşı Şamil müəllim yarandığı vaxtdan, yəni, 1931-ci ildən bəri Ramana yod zavodunda labaratoliya müdiri kimi fəaliyyət göstərmiş ataları Əliabbas Səmədzadənin həyat və əmək bioqrafiyası haqda söhbət açır. Müəllif qeyd edir ki, ağır iş günündən sonra atam azacıq vaxt tapan kimi mənə, kiçik qardaşım Ziyada, bacımız Dilarəyə dizimiz sıyrılanda, dirsəyimiz qanayanda ilkin yada düşən yodun qazma sularından hansı şəraitdə istehsal edildiyindən danışardı. Bir az böyüdükdən sonra dəfələrlə kiçik qardaşlarım Məzahir və Fikrətlə zavoda gedər, istehsal prosesini maraqla seyr edərdik. Həmin yazının bir yerində oxuyuruq: "Arxiv sənədlərini araşdırarkən mənə və qardaşım Ziyada atamın işinin o vaxt necə necə böyük əhəmiyyət daşıdığını bilmək nəsib oldu. Respublika rəhbərliyinin 1942-ci il 9 mart tarixli Qərarına əsasən Ramana və Suraxanı zavod direktorlarına öz zavodlarında kalium və natrium istehsalının təşkili həvalə olunurdu. İndi biz ailəlikcə qürur duyuruq ki, fədakar zəhməti ilə 9 May Qələbə gününü yaxınlaşdıranlar arasında o vaxt yod zavodunda labaratoriya müdiri işləmiş atam Əliabbas Səmədzadə də olub". (səh.160). Təsəvvür edin ki, 1942-ci ilin çox ağır günlərində Qroznını işğal etməklə düşmən həm də Azərbaycanın Şimala, cəbhəyə gedən yolunu bağlamışdı. Belə çətin bir vaxtda bütün yüklər və adamlar cəbhəyə Xəzər dənizində üzən gəmilərin vasitəsi ilə daşınırdı. Amma hitlerçilər də yaxşı başa düşürdü ki, bu dəniz yolu o zaman Sovetlər Birliyi üçün bir növ həyat və nicat yolu idi. Bu səbəbdən də faşist təyyarələri tez-tez Xəzər səmasında peyda olur, neft daşıyan tankerləri və yük daçıyan gəmiləri ara vermədən bombalayırdı. Kitabı n 197-ci səhifəsində dərc olunan fotoya baxanda adamı dərd, həyəcan bürüyür. Bu fotoda 17 alman təyyarəsinin neft daşıyan "Ağamalıoğlu" tankerinə hücumu əks olunub. 198-ci səhifədə isə bombardmandan sonra tankerin necə yandığı əks olunub. 206-cı səhifədə isə bizim hərbçilərin həmin gəmi heyətinə yardımını əks etdirən foto təqdim olunub. Kitabın bu yerində oxuyuruq: "Stalinqrad uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda Xəzərin kommunikasiya xətləri ilə 434472 nəfər hərbi və mülki şəxs, 96 təyyarə, 791 tank, 346 zirehli maşın, 222 traktor, 173730 baş at, 213257 ton döyüş sursatı və müxtəlif yüklər daşındı. Bu da alman-faşist qoşunlarının qabağına sədd çəkməklə yanaşı, Zaqafqaziya cəbhəsi Şimal qrupunun hücumunda həlledici rol oynadı." (səh.204). Müharibə illərində bir-birinin ardınca ağır cərrahiyyə əməliyyatları aparıb minlərlə döyüşçünü ölümün pəncəsindən xilas edən Mustafa Topçubaşov həmin vaxt Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışmaqla yanaşı, həm də ayrıca klinikaya rəhbərlik edirdi. Təsadüfi deyil ki, 1945-ci ilin yazında Azərbaycan SSR Elmlər Akademiyası təsis olunanda ilk seçilən akademiklərdən biri də Mustafa bəy idi. Kitabın bütöv bir səhifəsi görkəmli akademikin kifayət qədər zəngin olan həyat və əmək bioqrafiyasına həsr edilib. Həmin səhifədə oxuyuruq: "Mustafa Ağabəy oğlu Topçubaşov (1895-1981) Azərbaycan Sovet cərrahı, ictimai və dövlət xadimi, Azərbaycanda tibb təhsili və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biridir. Azərbaycan SSR EA akademiki (1945), Bolqarıstan Xalq Respublikası EA-nın müxbir üzvü (1951), SSRİ Tibb Elmləri Akademiyasının akademiki (1960), SSRİ Dövlət Mükafatı laureatı (1943), Sosialist Əməyi Qəhrəmanı (1975), Azərbaycan SSR Əməkdar Elm Xadimi (1940), Azərbaycan SSR EA-nın vitse-prezidenti ( 1951-1956 və 1969-1981), Azərbaycan SSR Ali Sovetinin sədri (1955-1959 və 1967-1971), Azərbaycan SSR Ali Sovetinin ( 1-10-cu çağırış) deputatı olub. (səh. 241). Qələbələrin qazanılmasında çox zaman mühüm rol oynayan partizan hərəkatı da müharibələrin ayrılmaz tərkib hissəsi kimi tarixə həkk olunub. Bu hərəkat zamanı partizanlar pusqu qurub düşmənə qarşı diversiyalar törədir, onu daim qorxu, vahimə içində saxlayırlar. Beləliklə, yer düşmənin ayağı altından qaçır və hər addımda torpaq od tutub yanmağa başlayır. O da maraqlıdır ki, pusqu qurub düşməni nəzarət altında saxlayan partizanların gücü rəqibi ilə müqayisədə birə-yüz artmış olur. Bu faktlar otuz iki ildən bəri Ermənistanla müharibə şəraitində yaşayan xalqımız üçün çox ciddi əhəmiyyət kəsb edir. Bu müharibədə düşmən bizə 1 trilyon dollardan artıq maddi ziyan vurub.

***(Davamı var)***



***Bayram AFURCALI,***
***publisist-fotoqraf***